COP29
Baku
Azerbaijan

# COP29 Yaşıl Zona Media Akkreditasiyası

## Tez-tez verilən suallar



COP29 Sədrliyi tərəfindən təşkil və idarə olunan COP29 Yaşıl Zona müxtəlif iştirakçıların öz baxışlarını bölüşmələri üçün dinamik platformadır. Bu zona iqlim dəyişmələrinə qarşı mübarizə üzrə mövcud innovasiyaların, eləcə də potensial həll variantlarının təqdim edilməsinə dair müzakirələr, panel diskussiyaları və əyani nümayişlər üçün mərkəz rolunu oynayır.

Tez-tez verilən suallar bölməsi COP29 Azərbaycan Əməliyyat Şirkətinin Media Akkreditasiya komandası tərəfindən media nümayəndələrinin Yaşıl Zonaya akkreditasiya prosesini səmərəli və rahat şəkildə tamamlamağa dəstək olmaq və yarana biləcək aidiyyəti suallara operativ və aydın cavabları təmin etmək məqsədilə hazırlanmışdır.

Əlavə suallarla bağlı mediaaccreditation@cop29.az e-poçt ünvanı ilə əlaqə saxlaya bilərsiniz.

### 1. Media akkreditasiyası üçün kimlər müraciət edə bilər?

Media Akkreditasiyası Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyası tərəfindən tanınan ölkələrdə media təşkilatı kimi qeydiyyatdan keçmiş rəsmi və etibarlı media qurumunu təmsil edən media nümayəndələri üçün nəzərdə tutulub. **Yerli media nümayəndələri,** həmçinin Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin reyestrində qeydiyyatda olmalıdırlar.

### 2. COP29-un Yaşıl Zonası üzrə media akkreditasiyası üçün necə müraciət edə bilərəm?

COP29-un Yaşıl Zonasında iştirak etmək üçün akkreditasiya almaq istəyən media nümayəndələri linkə keçid edərək müraciətlərini rəsmi COP29 portalı vasitəsilə təqdim etməlidirlər.

### 3. Media akkreditasiyası üçün e-poçt vasitəsilə müraciət edə bilərəmmi?

Xeyr. Onlayn Qeydiyyat Sistemi media nümayəndələrinin COP29-un Yaşıl Zonası üzrə qeydiyyatı üçün yeganə rəsmi resursdur. Onlayn Qeydiyyat Sistemi vasitəsilə göndərilməyən akkreditasiya sənədləri nəzərə alınmayacaq.

### 4. Media nümayəndələri üçün Yaşıl Zona və Mavi Zona yaxa kartlarının fərqi nədədir?

Yaşıl Zona yaxa kartı media nümayəndələrinə yalnız Yaşıl Zona daxilində iştirakçılar üçün açıq olan ictimai tədbir, sərgi və müzakirələri işıqlandırmaq imkanı verir.
Mavi Zona yaxa kartı isə yalnız akkreditə olunmuş nümayəndə heyətləri və media nümayəndələri üçün həm Yaşıl həm də Mavi Zonalarda UNFCCC-nin rəsmi danışıqları və yüksək səviyyəli görüşlərinə giriş icazəsi verir.

### 5. Yaşıl Zona yaxa kartının sahibi Mavi Zona ərazisinə də daxil ola bilərmi?

Xeyr. Yaşıl Zona yaxa kartının sahibləri Mavi Zonaya daxil ola bilməz.

### 6. Mavi Zona yaxa kartının sahibi Yaşıl Zona ərazisinə də daxil ola bilərmi?

Bəli. Mavi Zona yaxa kartının sahibi həm Yaşıl, həm də Mavi zonaya daxil ola bilər.

### 7. Yaşıl Zona üzrə media akkreditasiyası hansı müddət ərzində etibarlı olacaq?

Təqdim olunan akkreditasiya kartları konfransın keçiriləcəyi müddət (11-22 noyabr) ərzində qüvvədə olacaq. Fəaliyyət müddətində hər hansı dəyişiklik olarsa, bu barədə media nümayəndələrinə məlumat veriləcək.

### 8. Akkreditasiya üçün son müraciət tarixi nə vaxtdır?

Media akkreditasiya prosesi 30 oktyabr 2024-cü il tarixində saat 23:00-da (GMT+4) başa çatacaqdır. Yarana biləcək hər hansı bir probleminin qarşısını almaq üçün müraciətinizi mümkün qədər tez təqdim etməyiniz tövsiyə olunur.

### 9. Təmsil etdiyim təşkilatda artıq akkreditə olunmuş birini əvəz edə bilərəmmi?

Ezamiyyə təyinatlarında qısa zaman ərzində dəyişikliklər baş verə bilər. Zəhmət olmasa, kadr dəyişiklikləri barədə məlumatı bizə dərhal bildirin. Yeni müraciətçi də eyni qeydiyyat prosesindən keçməlidir. Əgər tələb olunan etibarlı sənədlər mövcuddursa, onların nəzərdən keçirilməsinə daha az vaxt sərf olunur.

### 10. Fotoşəkilimi online sistemə yükləməliyəm, yoxsa qeydiyyat masasında çəkiləcək?

Fotoşəkillər yaxa kartları paylanılmazdan əvvəl onlayn müraciət forması ilə birlikdə sistemə yüklənməlidir.

### 11. Müraciət etmək üçün hansı şəxsi məlumatlar təqdim edilməlidir?

Qeydiyyat prosesini tamamlamaq üçün aşağıda göstərilən məlumatları təqdim etməlisiniz.
Bu məlumatların qeydiyyat masasına təqdim edəcəyiniz pasport (xarici vətəndaşlar) və şəxsiyyət vəsiqənizdəki (Azərbaycan vətəndaşları) məlumatlarla uyğunluq təşkil etdiyinə əmin olun.

- Ad və soyad (pasportda və ya digər fotoşəkilli rəsmi identifikasiya sənədində olduğu kimi)
- Doğum tarixi
- Vətəndaşlıq
- Pasport və ya şəxsiyyət vəsiqəsi nömrəsi
- E-poçt ünvanı

### 12. Hansı sənədlərin əlavə edilməsi tələb olunur?

Akkreditasiya müraciətinə aşağıdakı sənədlər əlavə olunmalıdır:

- Xidməti ezamiyyət məktubu
- Jurnalist vəsiqəsinin surəti
- Pasport və ya şəxsiyyət vəsiqəsinin surəti
- Pasport ölçülü fotoşəkil (3x4 sm)
- Media Reyestri şəhadətnaməsi (yalnız yerli media nümayəndələri)

### 13. Xidməti ezamiyyət məktubunda hansı məlumatlar əks olunmalıdır?

Xidməti ezamiyyət məktubu media qurumunun rəsmi blankında yazılmalı və nümayəndənin adı, vəzifəsi və ezamiyyət müddəti göstərilməklə, naşir və ya baş redaktor tərəfindən imzalanmalıdır. **İmzasız və ya elektron poçt vasitəsilə göndərilən məktublar qəbul edilməyəcək.**

Xidməti ezamiyyət məktubunda şəxs(lər)in işıqlandıracağı sahə, ezam olunduğu tədbir və ya layihənin adı, tələb olunan akkreditasiya müddəti, eləcə də ad və peşəkar vəzifəsi əks olunmalıdır.

Akkreditasiya eyni qurumu təmsil edən bir neçə nəfər üçün tələb olunarsa, həmin şəxslərin adları tək bir məktubda qeyd oluna bilər, lakin hər bir müraciətçi məktubun surətini öz şəxsi hesabına yükləməlidir.

### 14. Xidməti ezamiyyət məktubunu kimə ünvanlamalıyam?

Xidməti ezamiyyət məktubu **COP29 Azərbaycan Əməliyyat Şirkətinə** ünvanlanmalıdır.

### 15. Akkreditasiya müraciətimin statusu barədə məlumat mənə nə zaman bildiriləcək?

Müraciətiniz portal vasitəsilə təqdim edildikdən sonra qeydə alınacaq və nəzərdən keçiriləcək. Qeyd etmək istərdik ki, müraciətinizə iki həftə ərzində baxılacaq.

Media akkreditasiyası üçün müraciət edən şəxslərin elektron ünvanına akkreditasiyanın statusu, o cümlədən uğursuz nəticələrlə bağlı bildiriş göndəriləcək.

### 16. Təmsil etdiyim təşkilat üçün ümumi akkreditasiya əldə edə bilərəmmi?

Xeyr. Siz təşkilat adından akkreditasiya üçün müraciət edə bilməzsiniz. Akkreditasiya yalnız tələb olunan etibarlı sənədləri təqdim etmiş rəsmi media qurumlarının ayrı-ayrı nümayəndələrinə verilir.

### 17. Müstəqil (frilanser) jurnalist kimi akkreditasiyadan keçmək mümkündürmü?

Akkreditasiya tələbləri eynilə müstəqil şəkildə çalışan jurnalistlərə (frilanser) də şamil olunur və onlar da qeydiyyat prosesindən keçməlidirlər. Müstəqil jurnalistlər, o cümlədən fotoqraflar, müəyyən xəbər agentliyi və ya nəşriyyat tərəfindən xidməti ezamiyyətə göndərildiklərini əsaslandıra bilməlidirlər. Bunun üçün həmin xəbər agentliyi və ya nəşriyyat tərəfindən verilmiş etibarlı ezamiyyət məktubu təqdim edilməlidir. Foto-agentliklər onların sifarişçisi olan xəbər agentliyi və ya nəşriyyatın verdiyi sübutları təqdim etməlidir. Akkreditasiya üçün tələb olunan digər sənədlər də təqdim edilməlidir.

### 18. Sosial media, bloqlar və ya yalnız internet əsaslı təşkilatlar akkreditasiya əldə edə bilərlərmi?

Xeyr. Media akkreditasiyasının sosial media, bloqlar və ya yalnız internet əsaslı təşkilatlara verilməsi mümkün deyil. Akkreditasiya yalnız tələb olunan meyarlara cavab verən  mətbuat nümayəndələri üçün nəzərdə tutulur.

### 19. Akkreditasiyamın olması mənə Yaşıl Zonaya radio-elektron avadanlıq gətirməyə və bu avadanlıqdan istifadə etməyimə icazə verirmi?

Xeyr. Akkreditasiyanızın təsdiqi avtomatik olaraq sizə radioelektron avadanlıq gətirməyə icazə vermir. Bütün akkreditə olunmuş media nümayəndələri COP29 Radiospektrin idarə edilməsi portalı vasitəsilə DSNG və əməliyyat avadanlıqlarının istifadəsi və müvəqqəti radio spektrin ayrılması ilə bağlı müraciətlərini təqdim etməlidirlər. Daha ətraflı məlumatı linkdən əldə edə bilərsiniz.

### 20. Avadanlıqların təhlükəsizlik yoxlamasından keçirilməsi tələb olunurmu?

Bəli. Yaşıl Zonaya daxil olan akkreditə olunmuş media nümayəndələri avadanlıqlarını da təhlükəsizlik yoxlanışından keçirməlidirlər.

### 21. Yaşıl Zonada foto-video çəkilişlərinə icazə verilirmi?

Bəli. Akkreditə olunmuş media nümayəndələrinə Yaşıl Zonada foto-video çəkilişə icazə verilir. Lakin, bəzi hallarda bu proses yer məhdudiyyətinə və tədbir təşkil edən tərəflərin istəklərinə/tələblərinə uyğun olaraq məhdudlaşdırıla bilər.

### 22. Son müraciət tarixindən sonra media akkreditasiyası üçün müraciət edə bilərəmmi?

Təəssüf ki, qeyd edilmiş tarixdən gec təqdim  edilmiş müraciətlərə baxılmayacaqdır.
Yarana biləcək hər hansı bir probleminin qarşısını almaq üçün müraciətinizi son tarixdən əvvəl təqdim etməyinizə əmin olun.

### 23. Akkreditasiyaları başqa şəxsə ötürmək olarmı?

Xeyr. Media nümayəndələrinin akkreditasiya kartı başqa şəxsə ötürülə bilməz və yalnız verildiyi şəxs(lər) tərəfindən istifadə olunmalıdır.

### 24. Yaxa kartım itdikdə və ya oğurlandıqda nə etməliyəm?

Yaxa kartınız itərsə və ya oğurlanarsa, bu barədə Yaşıl Zonanın girişində yerləşən Məkanın akkreditasiya üzrə dəstək ofisinə (VAHO) dərhal məlumat verməlisiniz.

### 25. Akkreditasiyam təsdiqləndikdən sonra nə etməliyəm?

Təsdiq məktubunu aldıqdan sonra sizin COP29-un Yaşıl Zonası üçün iştirakınız qeydiyyata alınacaq.
Siz yaxa kartınızı qeydiyyat zamanı istifadə etdiyiniz pasport və ya şəxsiyyət vəsiqəsini təqdim etməklə Milli Gimnastika Arenasında yerləşən Uniforma və Akkreditasiya Mərkəzindən (UDAC) əldə edə bilərsiniz.

### 26. Akkreditasiyanı haradan təhvil ala bilərəm?

Media nümayəndələri çap olunmuş yaxa kartlarını Milli Gimnastika Arenasında yerləşən Uniforma və Akkreditasiya Mərkəzindən (UDAC) təhvil ala bilərlər. Yaxa kartlarınızı təhvil almaq üçün siz qeydiyyat zamanı istifadə etdiyiniz etibarlı pasport və ya şəxsiyyət vəsiqəsi təqdim etməlisiniz.

### 27. Məkanda akkreditasiya yaxa kartımı daim üzərimdə (görünən şəkildə) daşımalıyam?

Bəli. Media akkreditasiya kartı konfrans müddəti ərzində etibarlıdır və tədbirin keçirildiyi məkanda hər zaman görünən şəkildə taxılmalıdır. Bu, ərazi daxilində təhlükəsizlik və girişə nəzarəti təmin edir.

COP29
Baku
Azerbaijan